# Milli teatrda izin qalıb

**Milli teatr dekorasiyası sənətimizin banilərindən biri Rüstəm Məmməd oğlu Mustafayev 1910-cu ildə, fevral ayının 25-də anadan olub. 1926-cı ildə Bakı Rəssamlıq Məktəbini bitirmiş Rüstəm Mustafayev hələ son kursun ilk günlərindən Akademik Dram teatrına baş rəssam dəvət olunub və 1938-ci ilə qədər burada səmərəli fəaliyyət göstərib.**

Akademik teatrda ilk işi 4 mart 1925-ci ildə Aleksandr Tuqanovun rejissorluğu ilə hazırlanan Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyasında quruluş olub. Həmin komediyaya Aleksandr Tuqanovun rejissorluğu ilə 22 yanvar 1930-cu ildə yeni tərtibat vermişdir. Digər tamaşalar: 16 oktyabr 1930-cu ildə Aleksandr Tuqanovun və Əliağa Əliyevin quruluşunda Əs Həbib Vəfanın "Bombey", 1 oktyabr 1932-ci ildə İsmayıl Hidayətzadənin və Cəfər Cabbarlının quruluşunda Cəfər Cabbarlının "Dönüş", 20 oktyabr 1932-ci ildə Cəfər Cabbarlının quruluşunda Cəfər Cabbarlının "1905-ci ildə", 28 oktyabr 1932-ci ildə Rza Darablı və İsmayıl Hidayətzadənin quruluşunda Hüseyn Cavidin "Şeyx Sənan" (geyim eskizləri Əzim Əzimzadəyə məxsusdur); 16 fevral 1933-ci ildə Əhməd Tiriniçin quruluşunda Cəlil Məmmədquluzadənin "Ölülər" (geyim eskizləri Əzim Əzimzadəyə məxsusdur), 20 oktyabr 1934-ci ildə İsmayıl Hüseynovunun quruluşunda Valentin Katayevin "Çiçəklər yolu", 28 yanvar 1935-ci ildə Abbas Mirzə Şərifzadənin quruluşunda Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" (səhnə tərtibatı rəssam Qolodenko ilə birgə), 23 aprel 1935-ci ildə Rza Darablının quruluşunda Cəfər Cabbarlının "1905-ci ildə" (geyim eskizləri Əzim Əzimzadəyə məxsusdur), 28 may 1936-cı ildə İsmayıl Hidayətzadənin quruluşunda Mkrtiç Cananın "Şahnamə" (geyim eskizləri rəssamlar Əzim Əzimzadəyə və Susanna Samarodovaya məxsusdur), 3 noyabr 1937-ci ildə İsmayıl Hidayətzadənin quruluşunda Cəfər Cabbarlının "1905-ci ildə" (geyim eskizləri Əzim Əzimzadəyə məxsusdur), 28 aprel 1939-cu ildə Məhərrəm Haşımovun quruluşunda Sabit Rəhmanın "Toy" (səhnə tərtibatı rəssam Əsgər Abbasovla birgə) və s. tamaşalara Akademik teatrda səhnə tərtibatı vermişdir.

Rüstəm Mustafayevin səhnə tərtibatlarında cazibəli kompozisiya aydınlığı vardı.

Klassik teatr tərtibatının monumentallıq ənənəsini çağdaş izlərlə, ilk növbədə konstruktivimizin səmərəli cəhətləri ilə ustalıqla birləşdirib.

Ən romantik pyeslərin tamaşalarına verdiyi tərtibatlarda da səhnə realizmi güclü və təsiredici, ifadəli və məzmunlu olur.

Sərt, ancaq isti rənglərdən istifadəyə üstünlük verib. Dekorların rəng düzümündə, ahəng biçimində, məzmun ifadəsində milli motivlər daha qabarıq nəzərə çarpıb.

Rüstəm Mustafayev tərtibatı tamaşanın obrazı kimi ümumiləşdirməyə çalışan və bu istiqamətdə nailiyyətlər qazanıb ənənə yaradan ilk rəssamlarımızdandır.

Fitri istedad sahibi Rüstəm Mustafayev 1940-cı il iyul ayının 19-da dünyasını dəyişib. Qəbri Bakıda Fəxri xiyabandadır. Azərbaycan Dövlət İncəsənət Muzeyi dahi rəssamın adını daşıyır.

**Bu il görkəmli rəssamın 85-ci ildönümüdür. Qısa ömür yaşamış bu rəssam teatr tarixində böyük iz qoymuşdur.**

***Bəhman Hacıyev***

***P.S. Məqaləni işləyərkən İlham Rəhimlinin "Akademik Milli Dram teatrı" (Bakı, "QAPP-POLİQRAF", 2002) kitabının birinci cildindən istifadə olunmuşdur.***